# Su təsərrüfatı işçiləri peşə bayramlarını qeyd etmişlər

***İyunun 5-də Qəbələdə meliorasiya və su təsərrüfatı işçilərinin peşə bayramı qeyd edilmişdir.***

***Rayon suvarma sistemləri və su-kanal idarələrinin kollektivləri ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək abidəsi önünə gül dəstələri düzmüşlər.***



Daha sonra keçirilən tədbirdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadənin və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin təbrik teleqramları oxunmuşdur. Suvarma sisteləri İdarəsinin rəisi Qüdrət Həmidov təbrik nitqində bildirmişdir ki, respublikamızda meliorasiya və su təsərrüfatı işlərinin təməli XX əsrin əvvəllərində qoyulsa da, onun möhkəm əsası üzərində inkişafına ulu öndər Heydər Əliyev 1969-1982-ci illərdə nail olmuşdur. Həmin illərdə regionlarda iri su anbarları, hidroqovşaqlar, nasos stansiyaları, texniki cəhətdən müasir meliorasiya və irriqasiya sistemləri tikilib istifadəyə verilmiş, suvarılan torpaqların ümumi sahəsi 2 dəfə artırılmışdır.

Su-kanal idarəsinin rəisi Tamerlan Həsənov çıxışında qeyd etmişdir ki, ulu öndər Heydər Əliyevin ölkədə meliorasiya və su təsərrüfatının inkişafına göstərdiyi qayğı, hazırda onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir.

Tədbirdə rayon icra hakimiyyətinin şöbə müdiri Məmməd İsmayılov su təsərrüfatı işçilərini təbrik edərək bildirilmişdir ki, son illər rayonda kənd təsərrüfatı əkinlərinin fasiləsiz olaraq suvarma suyu ilə təmin edilməsi üçün görülən işlərinin səmərəliliyinin yüksəldilməsi üzrə tədbirlər həyata keçirilmiş, rayon suvarma sistemləri idarəsi lazımi texnika və avadanlıqlarla təmin olunmuş, su qurğularının tikintisi, təmiri və bərpası istiqamətində xeyli işlər görülmüşdür.

Peşə bayramı münasibətilə rayonun bir qrup qabaqcıl su təsərrüfatı işçisi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin, eləcə də Azərsu ASC "Birləşmiş" MMC-nin Fəxri Fərmanları ilə təltif olunmuşdur.

**"Qəbələ"**

# Respublika Gününə həsr edilmiş "Bilik" yarışı

***Gənclər və idman idarəsinin iştirakı və təhsil şöbəsinin təşkilatçılığı ilə mayın 26-da Qəbələ şəhər 1 nömrəli tam orta məktəbin akt zalında şəhərin ümumtəhsil məktəblərinin şagirdləri arasında 28 May—Respublika Gününə həsr edilmiş "Bilik" yarışı keçirilmişdir.***



Əsasnaməyə uyğun olaraq "Bilik" yarışında tam orta məktəblərin IX-XI sinif şagirdləri komanda şəklində iştirak etmişlər. "Bilik" yarışı Azərbaycan dili, ədəbiyyat, tarix, riyaziyyat, coğrafiya, fizika, biologiya, kimya fənləri üzrə keçirilmişdir. Münsiflər heyəti tərəfindən suallar hazırlanaraq yazılı şəkildə komandalara təqdim edilmiş və hər komandanın üzvlərindən biri yazılı şəkildə sualı cavablandırmışdır.

Qaliblərin mükafatlanma mərasimində gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov, təhsil şöbəsinin metodkabinetinin müdiri Arifə Bayramova, münsiflər heyətinin sədri Aslan Şirazov çıxış edərək 28 May Respublika Günü münasibətilə iştirakçıları təbrik etmişlər. Natiqlər yarışın keçirilməsində məqsədin yetişməkdə olan gənc nəsli dövlətçilik, Azərbaycan xalqının tarixinə, dövlət rəmzlərinə hörmət ruhunda tərbiyə etmək və eyni zamanda onların intellektual səviyyəsini yüksəltmək, bilik və bacarıqlarını artırmaqdan ibarət olduğunu bildirmişlər.

Toplanmış xalların nəticəsinə görə şəhər 2 nömrəli tam orta məktəbin komandası I yerə, şəhər 3 nömrəli tam orta məktəbin komandası II yerə və şəhər 1 nömrəli tam orta məktəbin komandası isə III yerə layiq görülmüşlər.

Yarışın yekununda qalib gəlmiş və fərqlənmiş komandalara diplom, kubok və xatirə hədiyyələri təqdim olunmuşdur.

**✍ Məhəmmədəli Səfərçinov, gənclər və idman idarəsinin baş məsləhətçisi.**

# Birincilərin bayram tədbiri

***Gələcəyimiz olan uşaqların asudə vaxtlarının səmərəli və maraqlı təşkil olunması, sağlam böyüməsi, onların təhsil səviyyəsinin artırılması Nicat Apayev adına Qəbələ şəhər 4 nömrəli tam orta məktəbdə hər zaman məktəb rəhbərliyinin və pedaqoji kollektivin diqqət mərkəzində olub.***

İyunun 1-də bu ənənələri yaşadan təhsil ocağında I "s" sinif şagirdlərinin iştirakı ilə 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü və əlifba bayramı münasibətilə tədbir keçirilib. Sevinclərinin həddi-hüdudu olmayan uşaqların, müəllimlərin və valideynlərin qatıldığı bayram şənliyində məktəbin direktoru Qəşəngi Musayeva məktəbliləri təbrik edib.

Sonra sinif rəhbəri Səmayə Hacıyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü haqqında şagirdlərə ətraflı məlumat verərək, ölkəmizdə uşaqlara göstərilən dövlət qayğısının gücləndirilməsindən, uşaq problemlərinə diqqətin artırılmasından, uşaqlarla bağlı demoqrafik perspektivlərin müəyyənləşdirilməsi istiqamətində görülən işlərdən ətraflı danışıb.



Sinfin digər müəllimi Zümrüd Alməmmədova və bir qrup valideyn təbriklərə qoşularaq, şagirdlərə ən xoş arzularını bildiriblər.

Tədbirdə uşaqlar maraqlı süjeti olan ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

Yekunda balaca məktəblilər havaya üzərində sülh rəmzləri olan əlvan şarlar uçurublar.

Maraqlı təşkil olunan tədbir valideynlərdə və uşaqlarda xoş təəssürat yaradıb.

**✍ Ceyhun ZAKİROV.**



# Müvəffəqiyyət qazanmışlar

Bakı şəhərindəki «Start» İdman Kompleksində yeniyetmələr arasında karate üzrə respublika çempionatı keçirilmişdir. Qəbələ şəhərindən məşqçi Sənan Cəlilovun yetirmələri yarışda təmsil olunmuşdur.

İdmançılardan Nicat Nəbili, Fərid Tağıyev və Pənah Seyidov daha yaxşı göstəricilər əldə etmişlər.

# Bum qəsəbə tam orta məktəbində

## Silinməz iz buraxmışdır

Əlifba bayramı birincilərin həyatında ən yaddaqalan hadisələrdən biridir. Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbin birinci sinif şagirdlərinin əlifba bayramı Respublika Günü ərəfəsində baş tutmuşdur. Cari dərs ilində 73 nəfər birinci sinif şagirdi 3 sinif komplektində birləşmişdir. Siniflərə Zəminə Əzəmmədova, Zümrüd Ağasıyeva və Günay Qaragözova rəhbərlik etmişlər. Yazıb oxumağı öyrənmiş şagirdlərin hamısı ikinci sinfə keçiriləcəklər. Ayrı-ayrı günlərdə keçirilmiş əlifba bayramlarında şagirdlər öz bilik və bacarıqlarını nümayiş etdirmişlər. Onlar şeirlər söyləmiş, mahnılar oxumuş, maraqlı səhnəciklər nümayiş etdirmişlər. Hər üç tədbirdə məktəbin direktoru Məlahət Dadaşova çıxış etmiş, birincilərə gələcək təhsillərində uğurlar arzulamışdır. Tədbirlərin hazırlanmasında və keçirilməsində müəllimlərdən Asimə Zeynalova, Rüşanə Hüseynova, Cəmilə Şükürova, Əfqanə Rəhimova, məktəb uşaq birliyinin rəhbəri Gülnar Quliyeva fəallıq göstərmişlər. Əlifba bayramlarında valideynlər də iştirak etmişlər. Valideynlərdən Əfqanə Rəhimova, Ayaz Ağasıyev, Emin Ədilov, Bağır Məmmədov, Ruslan Rəşidov, Almaz Seyidova çıxış edərək müəllimlərin əməyini yüksək qiymətləndirmişlər. Əlifba bayramı iştirakçıları, birinci növbədə körpələrin qəlbində silinməz iz buraxmışdır.

## Tam hazırdır

Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində cari dərs ilində ilk dəfə beşyaşlılardan ibarət hazırlıq sinifləri fəaliyyət göstərib. Bura 61 nəfər 5 yaşlı qəbul olunub və onlar iki sinif komplektində birləşiblər. Balacaların təlim-tərbiyəsi ilə Dilbər Quliyeva və Vüsalə Rəşidova məşğul olub. Mayın 31-də onların buraxılış mərasimi keçirilib Nəticə göstərib ki, uşaqların hamısı 1-ci sinfə tam hazırdır.

Uğur olsun balaca dostlar.

**✍ Emin BARATOĞLU, «Qəbələ»nin müxbir postunun rəhbəri, AYB və AJB-nin üzvü.**